**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 85 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağcabədi rayonu Şənlik kənd sakini Paşayev Rasim Əhmədalı oğlu və digərləri Mərkəzi Seçki Komissiyasına müraciət edərək 82 saylı Ağcabədi seçki dairəsinin 16 və 17 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının olduğunu və bununla bağlı şikayət ərizəsinin araşdırılmasına dair həmin dairə seçki komissiyasının 27 dekabr 2014-cü il tarixli qərarının əsassız olduğunu iddia etmiş və Şənlik bələdiyyəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması nəticəsində 82 saylı Ağcabədi seçki dairəsinin 16 və 17 saylı seçki məntəqəsi məntəqə seçki komissiyası üzvlərinin, həmin seçki məntəqələrində səsvermə günü müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır.

Belə ki, həmin seçki dairəsi üzrə 16 saylı məntəqə seçki komissiyasının sədri Mirzəyev Nazim Səmid oğlu, katibləri Cəbrayılov Sevdimalı Hüseynalı oğlu, Rəhimova Əsli Rəhim qızı, 17 saylı məntəqə seçki komissiyasının sədri Paşayev Əhəd Şaban oğlu, katibləri Mustafayeva Vəfa Mobil qızı, Kazımov Sadiq Səlim oğlu və səsvermə günü həmin məntəqələrdə müşahidəçi olmuş Ağayev Natiq Tapdıq oğlu, Məmmədova Sevda Cəlil qızı, Qurbanov Kamran Cabbar oğlu, Heydərov Kamil Muxtar oğlu, Bayramov Tahir Yaqub oğlu, Həsənova Aidə Pəhlivan qızı, Bayramov Hüsəməddin Murad oğlu, Əmirov Etibar İsmayıl oğlu, İsmayılov Məhəmməd Bayram oğlu, Səfərov Rövşən Şirin oğlu, Səfərova Afət Əli qızı, Qurbanov Teyyub İbrahim oğlu, Səlimov Aqil Qaryağdı oğlu, kənd sakinləri Qurbanov Qaşqay Heydər oğlu, Qəmbərova Fitat Abduləzim qızı, Mirzəyev Etibar Məhəmmədəli oğlu, Qasımov Qüdrət Şaxmal oğlu, Cəfərova Nazilə Barat qızı, Quliyev Aqil Qulu oğlu, Quliyeva Səadət Ələmdar qızı, Paşayev Eynulla Camal oğlu, Quliyeva Tamilə, Abbasov Elşən Rizvan oğlu, Fərzəliyev Mahmud İdili oğlu, Ağayeva Dildar Bilal qızı, Qurbanova Aybəniz Tapdıq qızı, Quliyeva Zülfiyyə Yusif qızı, Ramazanova Elmira İdris qızı, Əliyev Etibar Əliyar oğlu, İsmayılova Məxmər Məhəmməd qızı, Qurbanov Cəlal Əhməd oğlu, İsmayılov Daşqın Əli oğlu, Quliyeva Nərmin Bəhrəm qızı, Şənlik bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Quliyev Oxtay Məmmədyar oğlu, Sadıqov Zahir Nayıb oğlu, Behbudov Dəyanət Qəşəm oğlu, Səfərov İlqar Minlik oğlu, Xəlilov Pərviz Saleh oğlu, Mamedov Yusif Vahid oğlu, Quliyev Bəhrəm Qulu oğlu və Ağayev Qəmbər Museyib oğlu izahatlarında bildirmişlər ki, səsvermə günü seçki prosesində hər hansı bir qanun pozuntusu müşahidə etməmiş, eyni zamanda hər bir seçici şəxsən səs vermişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməli və 82 saylı Ağcabədi seçki dairəsi dairə seçki komissiyasının 27 dekabr 2014-cü il tarixli 29/68 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Ağcabədi rayonu Şənlik kənd sakinləri Paşayev Rasim Əhmədalı oğlu və digərlərinin 1 yanvar 2015-ci il tarixli 85 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və 82 saylı Ağcabədi seçki dairəsi dairə seçki komissiyasının 27 dekabr 2014-cü il tarixli 29/68 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |